**Azərbaycan ədəbiyyatı kafedrasının**
**14.09.2020-ci il tarixli kafedra iclası**
**(Protokol №1) ilə təsdiqlənmişdir**

**Kafedra müdiri: akad. M.K.İmanov**

## Fənn Sillabusu

| | | | |
|---|---|---|---|
| **Fənnin adı:** | **Ədəbiyyatşünaslığa giriş** | **Akademik yarım il:** | **2020-2021-ci tədris ili, I semestr** |
| **Fənnə ayrılan saatlar:** | **30** | **Tədris forması: (ənənəvi/məsafədən)** | **Məsafədən** |
| **Fənnin krediti:** | **3** | **Fənn müəllimi:** | **fil.f.d.,b/m. Mehriban Oqtay qızı Mövlamova** |
| **Dil səviyyəsi/Fakültə** | **Azərbaycan dili / Filologiya** | | |
| **Qrup:** **Dərs saatları:** | **—** | **Virtual/ofis saatları** | **Çərşənbə axşamı** **Cümə axşamı** **15:00-17:00** |
| **Fənn üzrə qrup rəhbəri:** | **—** | **Fənn müəlliminin MS Teams hesabı:** | **me-movlamova@adu.edu.az** |

### Fənnin təsviri

Ədəbiyyatşünaslığa giriş fənni ədəbiyyatı yalnız klassik nümunələr əsasında təhlil edən, əsərin bədii-fəlsəfi mahiyyətini tarixilik müstəvisində aşkara çıxaran, bədii növlər və janrların poetik, bədii sistemlər, ədəbi cərəyanlar və yaradıcılıq metodlarının estetik sərhədlərini müəyyən edən, ədəbiyyatda dilin və üslubun funksiyasını təyin edən dəqiq prinsiplərə malik filoloji elmdir.

Ədəbiyyatşünaslığa giriş fənni universitetin filologiya fakültəsinin ilk kursunda tədris olunur. Ümumi ədəbiyyat elminin açarı funksiyasını daşıyan bu fənn nəzəri və praktiki şəkildə tədris olunmalı və dərslərin ardıcıllığı sadədən mürəkkəbə doğru prinsipi üzərində qurulmalıdır

**Şərtlər**

Bu fənn üzrə tələbədən tələb olunan əsas göstəricilıər yüksək intellekt, dünyagörüşü və erudusiyadır. Sağlam ədəbi tənqidin formalaşması üçün labüd olan yüksək elmi-nəzəri biliklərin bazasını düzgün şəkildə qurma bacarıqlarının aşılanması kursun tədrisi zamanı tələbolunanlar sırasındadır.

**Məsafədən təlimin məzmunu**

Distant dərslər zamanı dərsin lentə alınması yaxud, əvvəlcədən hazırlanmış videodərslərin olması eyni dərsi tələbənin yenidən dinləməsinə və ya iştirak edə bilmədiyi dərsi izləməsinə imkan yaradır.

**Fənnin məqsədi**

Fənnin əsas məqsədi konkret sərhədlərə malik ədəbiyyatın ən dəqiq sahəsi olan ədəbiyyat nəzəriyyəsinin bütün meyar və göstəricilərinin nəzəri və praktik şəkildə tələbəyə ötürülməsidir. Müəyyən elmi baza topladıqdan sonra tələbənin sərbəst ədəbi-nəzəri polemikalara girmə bacarıqlarının formalaşdırılması, epiqonçu təhlillərdən yayınmasını təmin edəcək elmi mühitin yaradılması qarşıya qoyulan məqsədlər içərisindədir.

**Fənn üzrə təlim nəticələri**

- Ilkin olaraq tələbələrin ədəbiyyatşünaslığın ibtidai dövründən müasir mərhələyə qədər olan məsələləri haqqında qısa təsəvvürə malik olmaları;
- Müxtəlif bədii material üzərində sərbəst işləmək bacarığına yiyələnmələri;
- Çağdaş ədəbi prosesə müstəqil şəkildə qoşulmaları;
- Epiqonçu mülahizələrdən uzaqlaşıb orijinal üslublu olmaları;
- Əzbərçi və hafizəyə əsaslanan təhsildən uzaqlaşıb yaradıcı təfəkkürə əsaslanan biliyə meyl etmələri.

**Qiymətləndirmə meyarları və mərhələləri**

**Qiymətləndirmə mərhələləri:**Kollokviumlar (cari qiymətləndirmə)

Onlayn dərslərdə aktiv iştirak(cari qiymətləndirmə)
Sərbəst iş
İmtahan (aralıq qiymətləndirmə)

**İmtahan (aralıq qiymətləndirmə)** *Aralıq qiymətləndirmə kursun sonunda aparılır və onun təşkili forması mövcud şəraitə uyğun olaraq dəyişə bilər.*

**Qiymətləndirmə sistemi/meyarları**

*Qiymətləndirmədə verilən materialı tam şəkildə mənimsəyən, öz yeni araşdırmalarını da tətbiq etməyi bacaran tələbələrə maksimal bal veriləcək. Distant təhsil üzrə qiymətləndirmə meyarları Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilərsə sillabusa əlavə ediləcək və tələbələrə bu haqda məlumat veriləcək.*

**Kollokvium 1: (cari qiymətləndirmə)**

**Dəyəri:**Cari qiymətləndirmənin 20 faizini təşkil edir və maksimal 10 baldır.

**Tarix**: 17 noyabr

**Tapşırıq növü: test və açıq sual**

**Təsvir**: 40 sualdan ibarət kollekvium. Suallar 0.25 bal olmaqla maksimum 10 balla qiymətləndiriləcək. Suallar 20 test və 20 açıq sualdan ibarət olacaq.

**Onlayn dərslərdə aktiv iştirak(cari qiymətləndirmə)**
**Dəyəri:**Cari qiymətləndirmənin 20 faizini təşkil edir və maksimal 10 baldır.
**Tarix:** Dərs cədvəlində qeyd olunur
**Type:** Onlayn dərslərdə, müzakirələrdə aktiv iştirak edən tələbələr uyğun balla qiymətləndiriləcəklər.
**Description**: Müzakirələr əqli hücum, t-sxem və konseptual cədvələ uyğun debatlar şəklində təşkil olunacaq.

**Kollokvium 2: (cari qiymətləndirmə)**

**Dəyəri:**Cari qiymətləndirmənin 20 faizini təşkil edir və maksimal 10 baldır.

**Tarix**: 28 dekabr

**Tapşırıq növü: test və açıq sual**

**Təsvir**: 40 sualdan ibarət kollekvium. Suallar 0.25 bal olmaqla maksimum 10 balla qiymətləndiriləcək.

Suallar 20 test və 20 açıq sualdan ibarət olacaq.

**İmtahan (aralıq qiymətləndirmə)**

**Dəyəri:**Yekun qiymətin 50 faizini təşkil edir və maksimal bal 50-dır.
**Tarix:** İmtahan cədvəlində qeyd olunur
**Tapşırıq növü: 5 sualdan ibarət açıq sual**
**Müddəti: 3 saat**
**Təsvir: ənənəvi olacağı təqdirdə 3 saatlıq imtahan müddətində tələbə 5 sualdan ibarət bileti yazılı şəkildə cavablandırır. İmtahan əgər məsafədən təşkil olunarsa bu zaman imtahan Microsoft teams proqramı üzərindən aparılır, hər tələbəyə 5 dəq vaxt ayrılır və suallar şifahi şəkildə cavablandırılır.**

**Cari qiymətləndirmənin cədvələ salınması**

| Kollokvium 1 | Kollokvium 2 | Online dərsdə aktiv iştirak | Sərbəst iş | Davamiyyət |
|---|---|---|---|---|
| 10 bal | 10 bal | 10 bal | 10 bal | 10 bal |

**Davamiyyət gözləntiləri (sinxron tədris formasında)**

Fənnə ayrılan saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır. Mövcud vəziyyətlə əlaqədar olaraq bu rəqəm bir qədər dəyişə bilər.

**Dərsdə fəal iştirak (sinxron və asinxron tədris formalarında)**

Fənnin məzmununa və xüsusiyyətinə uyğun olaraq sinxron və ya asinxron tədris formalarında təqdim olunacaq materialı müəyyən edirsiniz.

**Sərbəst iş**

Tələbələrə sərbəst iş olaraq sillabusda öz əksini tapmış mövzuların fərqli rakursdan təhlili və analizi verilir. Sərbəst işlər esse formasında olub aşağıdakı parametrlərə cavab verməlidir:

1. Esse plan, əsas mətn, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmalıdır.
2. Mətn 14 şrift (Times new roman) hər tərəfdən 2.5 sm, sətirlərarası interval 1,5 olmaqla 5-7 səhifə olmalıdır (Titul vərəqi bu səhifə sayına aid deyil).
3. Sərbəst işlər elektron və ya çap olunmuş formada tələbələrlə birlikdə təsdiqlənmiş son qəbul gününə (deadline) qədər qəbul olunur. Gecikdirilmiş iş qəbul edilməyəcək.

Sərbəst iş üçün mövzular

**Fərdi iş mövzuları:**

1. Yazılı dil və mətn anlayışı
2. Roman janrının təşəkkül və inkişaf tarixi
3. Azərbaycan gülüş mədəniyyəti
4. Qəzəl janrının təşəkkülü və inkişafı
5. Bədii obraz və onun növləri
6. Ədəbi mühit, ədəbi proses və dünya ədəbi prosesi
7. Inqilabi-romantik fikir və romantizm cərəyanı
8. Bədii əsərdə tip və xarakter
9. Əruzun komponentləri
10. Mif – nağıl: komperavistik təhlil
11. Sözün magik mahiyyəti
12. Ədəbi prosesdə ənənə və novatorluq
13. Bədii mətnlərdə “peyzaj”
14. Bədii detal kompozisiyanın əsas elementi kimi

15. Ədəbiyyatşünaslıqda bədii təsvir və bədii ifadə vasitəsi problemi
16. Aşıq şeirinin şəkilləri
17. Lirik təhkiyənin əsas əlamətləri
18. Epik təhkiyənin tarixi. Yazılı və şifahi mətnlərin müstəqil təkamül yolu
19. Xalq tamaşa və oyunları dram janrının ibtidai təzahür forması kimi
20. Mifik obrazların tipologiyası
21. Bədii portret və xarakter
22. Dramaturgiyanın qeyri-məhsuldar janrları (fars, vodevil, leze-dram)
23. Bayatı janrıının özəllikləri
24. “Divan ədəbiyyatında” şeir şəkilləri
25. Yazıçı şəxsiyyəti və yaradıcılıq prosesi

**Məsafədən tədris üçün tövsiyyə olunan tətbiqetmələr**

*Əziz tələbələr, onlayn dərslər MS Teams platforması üzərindən aparılır, tətbiqetmələrin istər mobil, istərsə də desktop (stolüstü) versiyasını yükləməlisiniz.*

**Tədris və təlim metodları**

1. Frontal sorğu
2. Beyin həmləsi
3. BİBÖ

*Bədii əsər üzərində iş zamanı istifadə edilən iş üsulları:*

1. T-sxem
2. Konseptual cədvəl
3. Blum taksonomiyası
4. Debat
5. Disskusiya

**Xüsusi qayğıya ehtiyacı olan tələbələrlə iş**

Sizin hər birinizin müxtəlif xarakterə malik olmanızı, elmi materialı müxtəlif şəkildə mənimsədiyinizi nəzərə alaraq kursa başlamazdan öncə hər biriniz haqda müəyyən təsəvvür əldə etmək üçün sizə psixoloji testlər təqdim olunacaq. Bundan sonra bütün kurs ərzində sizin hər birinizə cavablarınıza uyğun şəkildə yanaşmağa çalışacağıq.

**İstifadə olunacaq resurslar (Elektron/Yükləmələr/Əlavə materiallar)**


1. Axundov Y. Ədəbiyyat nəzəriyyəsi kursunda sentimentalizm ədəbi cərəyaninin öyrədilməsi. Bakı: 1990.
2. Antik ədəbiyyat antologiyası. 2 cilddə, I və II cild. Bakı: 2006.
3. Aristotel. Poetika. Bakı: 2006, 192 s.
4. Bualo N.Poeziya sənəti. Bakı: 2006.
5. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: “Elm”, 1977.
6. Elçin. Özümüz və sözümüz. Bakı: “Azərnəşr”,1993,115 s.
7. Əlimirzəyev X.Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: “Nurlan”, 2008, 432 s.
8. Əliyev K. Azərbaycan romantizminin nəzəriyyəsi. Bakı: “Elm”, 2006, 204 s.
9. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, 480 s.
10. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 360 s.
11. Hacıyev A.Ədəbiyyatşünaslığın əsasları.Bakı: 1999.
12. İbrahimov S. Əruz vəzni. Bakı: 2017, 48 s.
13. Kazımoğlu M. Xalq gülüşünün poetikası (monoqrafiya). Bakı: Elm nəşriyyatı, 2006. 268 s.
14. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, 103 s.
15. Qısa estetika lüğəti. Bakı: Azərnəşr,1970, 464 s.
16. Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: 1978.
17. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, 279 s.
18. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, 434 s.


*PS. Ədəbiyyatların (pdf variantı olan) elektron forması ms teams tətbiqinin müvafiq bölməsində yerləşdiriləcək.

**Kursun qiymətləndirilməsi/Tələbə rəyləri**

*Hörmətli tələbələr, sizin dərslərimiz haqqındakı fikir və düşüncələriniz bizim üçün maraqlı və dəyərlidir. Kursun sonunda anonim anket vasitəsi ilə kursun dəyərləndirilməsi aparılacaq.*

| Həftə | Modul/Bölmə/Fəsil | Modul/Bölmə/Fəsil təlim nəticələri | Oxu material | Tədris forması |
|---|---|---|---|---|
| 1. | **Ədəbiyyatşünaslığa giriş kursunun** | *Ədəbiyyatşünaslıq elminin çoxşaxəliliyi, müxtəlif sahələri | 1. Aristotel.Poetika.B.,Azərnəşr,1974,191 s.<br>2. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | **məzmunu,məqsədi, başqa elmlərlə əlaqəsi.** | haqqında müəyyən təsəvvürə malik olmaq;<br>*Ədəbiyyatşünaslığın mahiyyət və vəzifəsinin nə olduğunu öyrənmək;<br>*Nəzəri və praktik ədəbiyyatşünaslığın yaranma tarixi haqqında bilik əldə etmək;<br>*Ədəbiyyatşünaslığın başqa elmlərlə əlaqəsini müəyyənləşdirmək. | Bakı: 2012, s.10-40.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.4-13.<br>4. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.11-15.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 360 s.<br>6. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.4-11.<br>7. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları,B.,2008,s.3-28. | |
| | **Ədəbiyyatşünaslığın yaranması və inkişaf mərhələləri** | *Antik dövrdə ədəbi-nəzəri fikir.Aristotel və onun “Poetika” əsəri haqqında təsəvvürün yaradılmasını təmin etmək;<br>* K.Horatsi.”Pizonlara məktub” mənzum traktatında ilkin ədəbiyyatşünaslıq məsələlərinin araşdırılması;<br>* Qərbi Avropa maarifçilərinin (Didro, Russo, Lessinq) ədəbiyyatşünaslığın inkişafında rolunu müəyyən etmək;<br>* Azərbaycanda ədəbi-nəzəri fikrin təşəkkülünü araşdırmaq (X.Təbrizi,M.F.Axundzadə) | 1. Aristotel.Poetika.B.,Azərnəşr,1974,191 s.<br>2. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.10-40.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.4-13.<br>4. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları,B.,2008,s.29-74. | asinxron |
| 2. | **Bədii ədəbiyyatın xüsusiyyətləri** | * Bədii ədəbiyyatda obraz və obrazlılıq haqqında məlumatların öyrənilməsi;<br>* Obrazın (surət)-estetik kateqoriya kimi araşdırılması | 1. Aristotel.Poetika.B.,Azərnəşr,1974,191 s.<br>2. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.100-116.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | * Bədii obraz, xarakter, tip və onların qarşılıqlı əlaqəsinin müəyyən edilməsi<br>* Aristotelin xarakter nəzəriyyəsinin mənimsənilməsi | "Maarif", 1972, s.70-93.<br>4. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: "Elm və təhsil" 2012, s.12-17.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. "Mütərcim" Bakı: 2008, 238-263 s.<br>6. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.7-14.<br>7. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları,B.,2008,s.166-189<br>8. Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri lüğəti.B.,1978,s.111 | |
| | **Bədii əsərin məzmun və forması** | * Bədii əsərin arxitektonikası üzərində iş;<br>* Bədii məzmun və onun ünsürləri:mövzu və ideyanın əsərlərdə müəyyən edilməsi;<br>* Forma və onun əsas komponentləri: süjet və kompozisiya haqqında biliklərin aşılanması. | 1. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.92-98<br>2. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: "Maarif", 1972, s.70-93.<br>3. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: "Elm və təhsil" 2012, s.12-17.<br>4. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.7-23.<br>5. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları,B.,2008,s.189-205.<br>6. Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: 1978,s.111.<br>7. Qısa estetika luğəti. Bakı:1970,s.39-42. | asinxron |
| 3. | **Bədii əsərin dili** | *Bədii dil və onun ifadə vasitələrinin əsərdə təzahür formalarının araşdırılması;<br>* Məcazlar sistemi.Bədii təsvir və ifadə vasitələri haqqında elmi ədəbiyyatlardakı müxtəlif fikirlərin müqayisəsi. | 1. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.118-123<br>2. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: "Maarif", 1972, s.159-174.<br>3. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: "Elm və təhsil" 2012, s.49-60.<br>4. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | | Bakı: 2008, s.23-25.<br>5. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları,B.,2008,s.343-374.<br>6. Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: 1978,s.105-106.<br>7. Qısa estetika luğəti. Bakı:1970,s.39-42. | |
| | **Bədii ədəbiyyatda gülüş** | *Xalq gülüşünün genezisi haqqında ilkin təsəvvürün yaradılması;<br>* Gülüşün magik mahiyyəti;<br>* Bədii gülüş və onun növləri haqqında məlumatların verilməsi. | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları,B.,2008,s.29-74<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.96.100<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.23-25.<br>4. Kazımoğlu M. Xalq gülüşünün poetikası (monoqrafiya). Bakı: “Elm” 2006. 268 s.<br>5. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.159-174.<br>Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.305-316 | asinxron |
| 4 | **Ədəbi növlər və janrlar. Lirik növ** | *Ədəbi növ və janrların təsnifatı. Aristotelin növ və janrlar haqqında ilkin nəzəriyyəsinin araşdırılması;<br>* Lirik növün şifahi və yazılı ədəbiyyatda janrlarının öyrənilməsi; | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s.273-303.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.101-104.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.26-28.<br>4. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.93-97.<br>5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.305-316<br>6. Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978,s.108; s.139. | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | | Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 268-274. | |
| 5 | **Şeir sistemləri** | * Nəzm və nəsr: oxşar və fərqli cəhətlərinin müəyyən edilməsi;<br>* Şeirin əsas ölçü vahidləri: misra,bənd anlayışlarının mənimsənilməsi;<br>* Azərbaycan şeirinin ritm vasitələri: Qafiyə, təkrar, assonans, alliterasiyanın konkret nümunələr üzərində təhlili. | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s.236-244.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.150-218.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.26-28.<br>4. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.103-104.<br>5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.142-211.<br>6. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978,s.108; s.125-126.<br>Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 276-280. | asinxron |
| 6 | **Dünya və Azərbaycan ədəbiyyatında vəznlər** | * Azərbaycan şeirinin vəznləri: Heca vəznli şeirlər üzərində iş<br>* Əruz vəznin yaranması və təşəkkülünün öyrənilməsi;<br>*Əruz vəzninin ölçü və vahidlərinin konkret nümunələr üzərində araşdırılması;<br>*Əruzun məhsuldar qəliblərinin müəyyənləşdirilməsi;<br>*Azərbaycan ədəbiyyatında əruzun ən işlək bəhrləri üzərində iş. | 1. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: “Elm”, 1977.<br>2. İbrahimov S. Əruz vəzni. Bakı: 2017.<br>3. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s.256-267.<br>4. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.218-250.<br>5. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008, s.30-32.<br>6. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.111-114.<br>7. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.281-299.<br>8. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | | terminləri luğəti. Bakı: 1978,s.108; s.32-34<br>Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 281-286 | |
| 7 | **Kollokvium 1** | | | sinxron |
| 8 | **Sərbəst şeir** | *Sərbəst şeirin yaranması və inkişafı haqqında məlumatın mənimsənilməsi;<br>*Sərbəst şeirdə daxili harmoniyanın qorunması;<br>*Müasir poeziyada formanın şərtiliyi məsələsi; | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s.267-273.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.206-218.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.118-119.<br>4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.299-304.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 286-288<br>6. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978,s.108; s.32-35 | asinxron |
| | **Epik növ** | * Epik növün janr klassifikasiyasıları ilə tanışlıq;<br>*Epik təhkiyə formalarının mənimsənilməsi | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s.303-343.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.288-298.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.97-102.<br>4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.214-254.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 286-288<br>**6.** Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978,s.108; s.96-97<br>Qısa estetika lüğəti. Bakı:1970, s.255-256 | asinxron |
| 9 | **Dramatik növ** | *Dramatik növ və onun janrları | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi- | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | haqqında ümumi məlumatın mənimsənilməsi;<br>*Antik yunan teatrı;<br>*Drammatik növün kiçik həcmli janrlarının mənimsənilməsi | nəzəri əsasları. Bakı: 2008,s.343-374.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.288-298.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s.159-174.<br>4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.254-272.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 302-312.<br>6. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978,s.108; s.54-55<br>7. Qısa estetika lüğəti.Bakı:1970,s.92-96 | |
| 10. | **Bədii sistemlər, ədəbi cərəyanlar və yaradıcılıq metodları** | * Bədii üslub və metod anlayışlarının müqayisəli qavramı;<br>* Ədəbi cərəyanlar haqqında məlumatın mənimsənilməsi;<br>*Klassizm cərəyanının özəlliklərinin öyrənilməsi;<br>* N.Bualonun “Poeziya sənəti” əsərinin təhlili. | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s. s.381-388, 393.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.438-446.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s. s.188-205,217.<br>4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.317-246.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 31-36.<br>6. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978,s.103-104.<br>Qısa estetika lüğəti. Bakı: 1970, s.263-268,232-235 | asinxron |
| 11. | **Sentimentalizm və naturalizm cərəyanları** | * Sentimentalizm cərəyanının bədii-estetik xüsusiyyətlərinin müəyyənləşdirilməsi;<br>* Naturalizmin yaranması və əsas xüsusiyyətlərinin öyrənilməsi; | 1. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s. s.393-399.<br>2. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.440-444.<br>3. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | | əsasları. Bakı: “Maarif”, 1972, s. 217-224.<br>4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.359-366.<br>5. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 39-40.<br>6. Mirəhmədov Ə. Ədəbiy`yatşünaslıq terminləri luğəti. Bakı: 1978, s.122-123, 158-159<br>Qısa estetika lüğəti. Bakı: 1970, s.287-288, s.335-337. | |
| 12. | **Romantizm və realizm ədəbi cərəyanları.** | * Romantizm cərəyanının təşəkkülü, inkişafı haqqında məlumatların öyrənilməsi;<br>*Realizm cərəyanı və onun başlıca xüsusiyyətlərinin mənimsənilməsi;<br>* Realizmin müxtəlif təzahür formalarının öyrənilməsi; | 1. Əliyev K. Azərbaycan romantizminin nəzəriyyəsi. Bakı: “Elm”, 2006, 198 s.<br>2. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008,s. 399-210<br>3. Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: “Elm və təhsil” 2012, s.440-444.<br>4. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: “Maarif”, 1972, s. s.224-237<br>5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.359-366.<br>6. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 39-40.<br>7. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri luğəti. Bakı: 1978, s.150-153.<br>8. Qısa estetika lüğəti. Bakı: 1970, s.287-288, s. 329-333,315-319 | asinxron |
| 13. | **Müasir ədəbi-estetik cərəyanlar. Modernizm və onun təzahür formaları.** | * Simvolizm cərəyanı. Magik, fantastik və mistik realizm haqqında məlumatların mənimsənilməsi;<br>* Modernizmin müxtəlif təzahür formaları:ekzistensializm,sürrealizm cərəyanlarının başılca xüsusiyyətlərinin müqayisəli şəkildə | 1. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012, s.400-404.<br>2. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. “Mütərcim” Bakı: 2008, 50-52.<br>3. Quliyev Q. Dəlidən doğru xəbər. Bakı:1999.<br>Zeynalova D. Modernizm. Postmodernizm. (terminoloji lüğət) Dərs vəsaiti. Bakı: 2015. | asinxron |

| | | | | |
|---|---|---|---|---|
| | | öyrənilməsi | | |
| | **Formalist ədəbi cərəyanlar. Postmodernizm** | * Modernizm və postmodernizm: oxşar,fərqli cəhətlərinin müəyyənləşdirilməsi;<br>* Postmodernizmdə dekonstruksiya anlayışının qavranılması; | 1.Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı: 2012.<br>2.Zeynalova D. Modernizm. Postmodernizm. (terminoloji lüğət) Dərs vəsaiti.Bakı: 2015 | asinxron |
| | **Postmodern əsərlər üzrəində iş** | | | sinxron |
| 14. | **Kollokvium 2** | | | |
| | Aralıq qiymətləndirmə | | | |

**Kursun məzmununun müfəssəl təsviri**

Ədəbiyyatşünaslıq ən qədim elmlərdən biridir. Bu elmin qədim və dövrümüzə qədər gəlib çıxmış klassik nümunəsi – Aristotelin "Poetika" əsəri yeni eradan əvvəl dördüncü əsrdə Yunanıstanda meydana çıxmışdır. Sonrakı iyirmi dörd əsr ərzində dünya xalqlarının yüzlərcə dilində milli ədəbiyyatlar yaranmış və inkişaf etmişdir. Ədəbiyyatların belə milli əlvanlığına baxmayaraq onların hamısını birləşdirən ümumi xüsusiyyətlər vardır. Bunlar ədəbi dilin, bədii qavrayışın, bədii əsərin quruluşunun və yaradılması prosesinin ümumi xüsusiyyətlərinə aiddir. Bu xüsusiyyətləri, onları əks edən əsas anlayış və terminləri ədəbiyyatşünaslığın əsasları və ədəbiyyat nəzəriyyəsi öyrənir.

Ədəbiyyatşünaslığın əsasları ədəbiyyat elmi haqda ümumi məlumat verir və onun əsas anlayış və terminlərini yığcam, sistemli şəkildə izah edir. Bu fənn adətən filoloji təhsilin əvvəlində, birinci kurslarda tədris edilir. Yalnız ədəbiyyat tarixi və dünya ədəbiyyatı barədə geniş biliklər alındıqdan sonra ədəbiyyat nəzəriyyəsi bu bilikləri nəzəri cəhətdən əlaqələndirəm və müqayisəli şəkildə izah edən və sistemləşdirən bir fənn kimi öyrənilir. Ədəbiyyat nəzəriyyəsinin əsas termin və anlayışlarını yaxşı mənimsəmək və təsəvvür etmək üçün üç-dörd ədəbiyyatın tarixini, təcrübəsini az-çox bilmək zəruridir.

**Videodan istifadə və dərsin lentə alınması**

Dərslərimizin lentə alınması həm dərsdə iştirak edə bilməyənlərin yenidən dərsi izləməsinə şərait yaradır, həm də videolar müvafiq qurumların dərsimizin gedişatını dəyərləndirmək baxımından əhəmiyyətlidir. Bu videoların müəllimdən xəbərsiz başqa platformalarda paylaşılması qəti qadağandır.

**Görüntünün təmin olunması:**
Dərsdə müəllim və tələbə arasında olan göz kontaktını təmin etmək baxımından qoşulan tələbələrin kameraları açıq olmalıdır.

**Müəllif hüquqları**
Ms teams platformasında yerləşdirilən hər bir videodərsin, ppt formatlı prezentasiya-mühazirələrin eləcə də elektron mühazirələrin hamısının müəlliflik hüququ qorunur. İstinad etmədən götürmək, paylaşmaq qadağandır.